# YADDAŞIN ÇİNGİZ AĞRISI

## *Məlahət Soltanqızının «Yarımçıq ömrün xatirəsi» poemasında əsas xarakterik cizgilər*

*(Əvvəli ötən sayımızda)*

* * *

Azərbaycan tarixinin Xocalı dövrü yuxarıda qeyd etdiyimiz kimi sirli bir gecənin qaranlığı ilə yadda qalıb. Həmin dövrə müraciət edən tədqiqatçı da, yazıçı da, bədii düşüncə adamının hər biri də öz zəkasının işığı ilə həmin qaranlığı dağıtmağa,onu üzə çıxarmağa çalışır.

Məlahət Soltanqızı şeirlərinin birində insan və gecə qarşılaşmasını parlaq poetik bir örnəklə («Bu gecə də bir gecədir») belə əbədiləşdirib:

«Bu gecə də bir gecədi
Buzlar çöküb aramıza
Min bir təbib gəlsə belə
Məlhəm tapmaz yaramıza.

Dərd bölünməz bir loxmadı,
Çəkən bilər bu acını
Dərman-dəva kara gəlməz,
Zaman verər əlacını».

Bu şeirdən hər kəs öz düşüncəsinə uyğun nəticə çıxara bilər. Baxmayaraq ki, bu şeiri müəllif 2004-cü ildə yazıb. Ancaq mən həmin şeirdə Xocalı gecəsinin xofunu duyuram. Bəlkə bir başqası iki qəlbin arasına çökmüş «qış soyuqluğundan» da daşına bilər. Hansı tərəfə çəksən gecənin qaranlıqlarla düyünlənmiş obrazı «gəl məni qəfəsdən aç» deyir. Beləcə şairə Məlahət Soltanqızının ruhunu «Yarımçıq ömrün xatirəsi»nə aparan yola çıxmış oluruq. Klassik ənənədə olduğu kimi o, başlanğıcda ya rəbbim deyə xitab edir. yazmaq, yaratmaq arzusunda olduğunu bildirir. O, yaxşı bilir ki, bu duyğular sadəcə arzu olaraq qala bilməz. Arzu isə gerçəkləşənə qədər həyat hadisələri qarşılaşır, döyüşür, mübarizə aparır, özünün reallaşmaq istəyini təsdiq etmək istəyir. Bu yolda da müəllif sözü özünün silahı hesab edir. Ruhunun ənginliyinə qalxmaq üçün sözü qanadları kimi qavrayır.

Çingiz Fuadoğlu Azərbaycandan uzaqda doğulub. Keçmiş SSRİ-nin Vladimir rayonunun Kapustinyar qəsəbəsində... Bir hərbiçi ailəsinin övladı kimi dünyaya gəlib. Müəllif də elə Çingizin dünyaya gəlişi ilə əsərini başlayır. Hələ Çingizin 4 yaşı olanda ailə Bakıya köçür. Və demək Çingiz də doğma diyarda pərvəriş tapır. Əksər uşaqlara xas olan yolu keçir. Ancaq müəllif Çingizin təbiətindəki qeyri-adilikləri yeri gəldikcə, elə incələyir ki, biz bu uşağın simasında gələcəyin hamı tərəfindən qeyri-adiliyi ilə tanınacağını duyuruq. Əgər müharibə olmasaydı, əgər Sovet imperiyası çökməsəydi... dəxli yoxdu, Çingiz nüvəsində olan enerjinin gücü ilə çoxları üçün qeyri-adi bir ziyalı kimi formalaşacaqdı. Ola bilsin ki, elmlə, təcrübəni birləşdirəcək bir həkim olacaqdı. Axı o, tibb sahəsini seçmişdi. Şairlərə məxsus hava, qəhrəmanlara məxsus cəsarət, müdrikələrə məxsus sədaqət... kimi keyfiyyətlər onu ümumi axının içərisində itib-batmağa qoymazdı. Hətta Çingizin ilk gənclik çağlarındakı sevgi duyğuları da əsərdə müəllif səmimiyyəti ilə qələmə alınıb. Bu sevgi Çingizin qəlbində qönçələnib. Nərgiz adlı tələbə qıza olan sevginin onun qəlbinə gətirdiyi ali duyğular bu gəncin ruh etibarı ilə nə qədər ali bir varlıq olacağından ilkin müjdələrdir. Çox təəssüf ki, Çingizin ilk sevgisi həyatın təsadüfi bir qəzasının qurbanı olur. Nərgizin dənizdə boğulması xəbərini Çingiz yay tətilindən sonra sevgilisinin rəfiqələrindən eşidir. Xəbər Çingizi sarsıdır, onun qəlbinə sağlamaz bir yara vurur. Artıq Çingiz üçün həyatın bu ağır sürprizi, həm də bir imtahan idi. Onun bu imtahandan necə çıxacağı bundan sonra necə yaşayacağı onun özünün iradəsindən, xarakterindən asılı idi. Müəllif Çingizin bu mərhələdəki ağrılı-acılı düşüncələrini bir şahid ifadəsi kimi verir. Biz burada müəllifin özünün ədəbi qəhrəmanın daxili aləminə necə daxil olduğunu da duyuruq:

«Çingiz inanmırdı bu olanlara
Elə bil donmuşdu damarda qanı
Bu yay çox getmişdi
Dəniz sahillərinə
Saatlarla oturub
Suları seyr etmişdi.
Bu nə təsadüf belə
Onun sevdiyi qızın dənizlərdə batması,
Sulara qərq olması...
Çingiz yenə sahildəydi.
İzləyirdi ləpələri...
Çingiz inanmırdı, bu nə xəbərdi,
Qəlbində saxladığı
kimsəyə açmadığı
bu sevginin sən demə
qanadları qırılmış,
yarımçıq yolda qalmış,
bu sevgi çırpındı yaralı quş tək,
O, qəmli xatirə burda bitəcək».



Xeyir, bu qəmli xatirə burda bitmir. Bu həyat zərbəsi, bu təsadüfi qəzavüqədər Çingizin varlığına hopur. Onu bir kişi kimi bütövləşdirir. Sanki onun həyat yolunu müəyyənləşdirir. Çingiz başa düşür ki, ölüm hər an insanın həyatını qıra bilər, onu əbədiyyətə apara bilər. Elə buna görə də Çingiz bir şəxsiyyət olaraq kimliyini təsdiq etməyin ən ali yolunu seçir. O, vətən üçün yaşamağı qərara alır. Həmin dövrün cavanları silaha sarılmışdı. Çingiz də öz silahına sarılmışdı. Doğrudur, o, həkim kimi döyüşlərdə iştirak edə bilərdi. Bəlkə neçə əsgəri də ölümün pəncəsindən qurtara bilərdi. Ancaq düşünür ki, bunu başqaları da edə bilər. O, video-kameranı daha üstün silah kimi seçmişdi. Həqiqətən poemanın gətirdiyi əhval altında belə bir fikri qeyd eləməyi vacib hesab edirik: birdən həyat bizə Çingiz xronikasının yadigarını qismət eləməyəydi, onda müharibə tariximizin necə dəhşətli səhnələri itmiş olardı. Bu mənada Çingizin sənədli xronika yaradıcılığı hadisələri yerindəcə video yaddaşa gətirməsi onun öz xalqına heç nə ilə əvəz olunmayan xidməti idi. Xocalı hadisələrinə qədər Çingiz müharibənin çox ağır yolunu keçmişdi. Yuxarı Qarabağın, Laçından, Şuşadan belə çox yerini lentin yaddaşına yazmışdı. Amma Xocalı hadisəsi bütün hadisələrin fövqündə dururdu:

«Çingiz döyüşürdü mətanətiylə
Çəkirdi gördüyü bu zillətləri
Hələ bərkiməmişdi,
Sinəsində ürəyi
Kövrək baxışlarında
Sanki dolmuşdu bulud
Ağlamaq istəyirdi,
Körpə bir uşaq kimi
Ürəyini boşaltmaq...
Qanı bir, dini bir bu insanların
Halına dözmürdü...
Ölüm deyil bu.
Ölüm var,
Ölüm də var,
Ölüm də var...
Ölüm deyil, zülümdü bu».

Biz Çingizi bir azərbaycanlı gənci kimi görürük. Əsər boyu bu gənc gündən-günə böyüyür. Hadisələr onun daxili-mənəvi mühitinə kitab kimi yazılır, roman kimi köçür.

* * *

Restoranlarda, barlarda şənlənən həmyaşıdlarını gözlərinin önündən keçirir, bəlkə elə o da belə bir şənliyin içində ola bilərdi:

«Çəkilib bir kənara,
dalmışdı xəyallara
bu gün sakitlikdi,
yorğundu hamı
oturub səngərdə iki-bir, üç-bir
əsgərlər gözləyir,
əmrə müntəzir.
Çingiz çıxarmışdı çəkmələrini,
Sol ayağı nə vaxtı incidir onu.
Əli ilə ovuşdurdu
Qızarmış barmaqlarını.
Ağrıyırdı dizləri,
Həvəssiz, həvəssiz geyindi çəkmələrin
Söykənərək divara,
Dalmışdı xəyallara.
Xəyal onu buralardan qopardı,
Xəyal onu haralara apardı...
Yaman darıxmışdı doğmalarıyçün,
Xəyalın qanadında evlərinə uçmuşdu
Evlənmişdi, yolunu gözləyəni var idi.
O oğul atasıdı,
Aslan kimi bir körpə
Böyüyür ocağında
Evini arzuladı...
- Kaş evimdə olaydım,
O körpə övladımı qucağıma alaydım
Mışıl-mışıl yatağında uyuyan
Övladımın süd qoxusun alaydım.
Mənə övlad bəxş edən
Mələyimin kaş yanında olaydım.
Yollar uzaq, zaman dar».

Amma atılan mərmilər, gurultular yaxınlıqdakı insanların ölümlə çarpışmalarını göstərən qanlar, haraylar bu xəyalları vurub dağıdır. Və Çingiz bir daha dərk edir ki, o, elə bu döyüş üçün doğulub. Çingiz həm də təbiətən emosional gəncdir. Onun emosionallığını müəllif həyatda yaşamış Çingizə yaxınlaşdıra bilib. Bir dostunun ölümü, həmin dostunun arzuları... yarımçıq qalmış istəklər... bütün bunlar onun varlığını kəsib, doğrayır:

«Ən yaxın dostunu
İtirmiş dünən,
Nə yerə sığışır, nə də göyə
Hey çalışır başqa şeylər düşünsün...
Qulağından getməyir,
Dostunun vəsiyyəti...
Zakirin dodağından qopan
O son kəlmələr...»

Çingiz təbiət etibarı ilə dostuna, ailəsinə, Vətəninə ruhuyla, varlığıyla sədaqət andı içmişdi. Həlak olan dostunun son kəlmələrini də onun həyatının davamı kimi varlığına yığır, ruhuna yığır. Çünki döyüşdə həlak olanın son kəlmələri əbədi yaddaş əmanətidir. Məlahət Soltanqızının bu real həyat lövhəsi mənim də yaddaşımda həqiqi bir müharibə səhnəsini canlandırır. Cəbrayılda Şayaq aşırımında elə həmin dövrdə igid Şikar Aslanov son sözlərini mənim qollarımın üstündə demişdi. Şikar çox gənc idi, hələ evlənməmişdi: «Əli Rza müəllim, qoy bir az dünyaya baxım». Bu deyimin arxasında nələrin dayandığını təsəvvür etmək çətin deyil. Yəni doyunca yaşamadığım bu dünyaya heç olmasa son anda baxa bilim. Və daha nələr, nələr...

Çingiz də dostu Zakirin son sözlərini əbədi əmanət kimi dinləyir:

«Söylə mənim yarıma, bundan sonra
Oğlumuzçün yaşasın,
Məndən sonra bir kimsənin
Əllərini tutmasın
Mən şəhidəm, namusum,
Qeyrətim tapdanmasın
Son arzum bu - «şəhidlərin
qanı yerdə qalmasın».
Bu kəlmələr, bu sözlər
Vəsiyyətdi, əmanətdi
Sahibinə çatmalı
Şəhidlər öz məzarında,
Rahat-rahat yatmalı».

Əsər boyu biz Çingizi fövqəl gücdə olan əmanətdar kimi görürük. O, varlığında Azərbaycanın döyüş əzmini yaşadan bir qəhrəman kimi gözümüzün önündə canlanır. Əsər boyu müəllif qəhrəmanını qartalla müqayisə edir, dağların zirvəsi ilə qiyasa çəkir. Və hər yerdə biz Çingizi qalib görürük. İstər mənəvi sarsıntılar savaşında, istərsə də real vətən, torpaq savaşında. Bu gün onun çəkdiyi kadrlar erməni faşizminin idbar xislətini ifşa edən, onların varlığını darmadağın edən uzaq vuran topların mərmisi gücündədir. Biz Çingizi son anda yenə vətən sevdalısı kimi görürük:

«Çingiz şəhid oldu
Elə həmin gün
çırpınaraq ruhuyla
o ölüm qəfəsində
vətən, vətən - söylədi
son, axır nəfəsində».

Bundan sonra müəllifin ölüm haqqında poetik düşüncələri gəlir. O, ölü-mün fəlsəfi mahiyyətini açmağa çalışır. Onun qarşısı alınmaz bir yol olduğunu təsdiqləyir və bu təsdiqin özündə ölümdən sonra yaşaya bilməyin mahiyyətinə diqqəti yönəldir. Əsərin sonunda müəllim lirik bir şeirlə, həzin duyğularla Çingizdən ayrılır:

«...Kollar, koslar basıb o doğma yurdu
Tələyə salıbdı çaqqallar yurdu
Viranə qoyublar o cənnət yurdu
Hələ də şəhidlər verir bu torpaq.

27 il olacaq sənin ölüm tarixin,
Yenə də şəhidlər verir bu torpaq.
Yenə səngərlərdə, qarda, yağışda
Əsgərlər, zabitlər növbə başında...»

27 illik tarixin bu gününə nöqtə qoyur, amma hələlik.

* * *

Qarabağ mövzusu, yəqin ki, hələ uzun illər çözüləcək. Bəlkə, əsrlər də keçəcək. Gələcək zamanın söz-sənət adamları təkcə bu dövrü tarixi məlumat mənbələrindən öyrənməyəcəklər. Bir sözlə, gələcək üçün mənbə, həm də indiki zamanda yaradılmış və zamanın ağrısını özündə ehtiva edən bədii əsərlərdən də öyrənəcəklər. Şübhəsiz, belə bədii əsərlər sırasında zamanın şahidliyi ilə dövrün şahidləri tərəfindən yazılmış əsərlər daha böyük əhəmiyyət kəsb edəcək.

Tədqiqatçı-şairə Məlahət Soltan qızının "Yarımçıq ömrün xatirəsi" poeması da gələcəyin diqqətindən kənarda qalmayacaq. Bu əsərdə qəhrəmanlığın xarakterik cizgiləri birbaşa müəllifin müşahidələri ilə qələmə alındığından - yazıya gətirildiyindən realdır, həyfat həqiqətlərinə çox yaxındır.

İnsanlar ən acı həqiqəti belə sükutla qarşılasalar da daxili bir hisslə ona rəğbətlə yanaşırlar.

**Əli Rza XƏLƏFLİ**